| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | **EDU428, Təhsildə İKT, 6 AKTS** |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Arzu Nəsirli |
| | **E-mail:** | arzunasirli@gmail.com |
| | **Telefon:** | - |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov korpusu |
| | **Məsləhət saatları** | Razılaşdırılaraq təyin etmə ilə |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Həmidov S.S. Kompüter şəbəkələri, internet və multimediya. Bakı. 2020.<br>2. Multimediya texnologiyalarının köməyi ilə tədris prosesinin təşkili Azərbaycan Respubloikasının Təhsil İnstitutu. Elmi əsərlər. Cild 85, N8, 2018.<br>3. İ.İsmayılov, C.Abdullayev- Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları tədrisdə onlardan istifadə. Bakı 2006<br>4. Aytac Rzayeva, Zahirə Paşayeva İKT. Bakı-2014.<br>5. Vaqif Qasımov, İnformasiya təhlükəsizliyinin əsasları. Bakı-2009.<br>6. Fərqanə Əliyeva, Ümhani Məmmədova, Müasir təlim texnologiyaları. Bakı-2014.<br>7. A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014.<br>8. A.W. (Tony) Bates, Teaching in a<br>9. Digital age, 34-67<br>10. https://ict.az/en/content/89/<br>11. https://www.office.com/<br>12. https://learn.microsoft.com/en-us/training/<br>Təhsildə İKT-ə dair kitablardan istifadə edilə bilər.<br>Mövzularla əlaqəli nəşr olunmuş elmi məqalələri/kitabları əldə etmək üçün:<br>a) Google Scholar - https://scholar.google.com/<br>b) ERIC - https://eric.ed.gov/<br>c) https://www.millikitabxana.az/<br>Kurs, yuxarıda göstərilən dərsliklərin və Xəzər Universiteti kitabxanasında mövcud olan tədris materiallarının istifadəsini məhdudlaşdırmır. | |

<table>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Bu kurs təhsildə İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) istifadəsini və bu texnologiyaların tədris mühitinə necə inteqrasiya olunduğunu anlamağa imkan verir. Kursun məqsədi, tələbələrin İKT alətlərini və proqramlarını tədrisdə effektiv şəkildə istifadə etmə bacarıqlarını inkişaf etdirməkdir. Tələbələr bu kurs vasitəsilə müxtəlif İKT tətbiqləri, rəqəmsal tədris resursları və onlayn öyrənmə platformaları ilə tanış olacaqlar. Kurs, həmçinin, təhsildə İKT-nin tətbiqinin nəzəri və praktik tərəflərini əhatə edir, müasir təhsil yanaşmalarının inkişafını və təhsildə texnologiyanın rolunu vurğulayır, tədris prosesinin qurulmasına lazım olan, onu praktik formada tətbiq edəcək və müasir tələblərə cavab verən formada təşkilini təmin edir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">“Təhsildə İKT” kursu informasiya kommunikasiya texnologiyaları, İKT-nin cəmiyyətdə rolu, onun tədris və təlim prosesində, o cümlədən ali təhsil müəssisələrində tətbiqi məsələlərindən bəhs edir:<br>1. Tələbələrə İKT-nin təhsildəki rolunu anlamaq: Tələbələrə, İKT-nin tədris və öyrənmə prosesində necə istifadə olunduğunu, müxtəlif tədris alətlərinin və proqramların təhsil mühitindəki əhəmiyyətini başa salmaq.<br>2. İKT bacarıqlarını inkişaf etdirmək: Tələbələrin müxtəlif İKT alətlərini effektiv şəkildə istifadə etmə bacarığını inkişaf etdirmək və onların informasiya emalı, rəqəmsal resurslardan istifadə etmə bacarıqlarını artırmaq.<br>3. Müxtəlif tədris metodlarını tanıtmaq: İnteraktiv dərs proqramları, e-öyrənmə platformaları, rəqəmsal resurslar və tətbiqlərin təhsildə tətbiqinə dair bilik və bacarıqlar əldə etmək.<br>4. Təhsildə İKT tətbiqləri ilə qiymətləndirmək: Tələbələrin müxtəlif İKT alətləri və texnologiyalarını dərslərdə istifadə etməklə onların öyrənmə və tədris prosesinə təsirini qiymətləndirmələrini təmin etmək.<br>5. Rəqəmsal təhsil strategiyalarını tətbiq etmək: Müxtəlif müasir təhsil yanaşmaları, onlayn tədris və rəqəmsal təhsil alətlərini tədris və öyrənmə proseslərində tətbiq etmək.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Kursun sonunda tələbələr aşağıdakıları bacarmalıdır:<br>▪ Təhsildə İKT-dən istifadəni öyrənəcək və praktik tətbiq edəcək;<br>▪ İnformasiya-kommunikasiya texnologiyaları haqqında məlumatlı olacaq;<br>▪ Təlim prosesində İKT ilə interaktiv və yaradıcı tədris metodlarının tətbiqini öyrənəcək;<br>▪ Özünüinkişaf və tədqiqat üçün İKT-dən istifadə etməyi öyrənəcək;<br>▪ Onlayn tədris və e-öyrənmə platformalarının qurulması və idarə edilməsini mənimsəyəcək.</td></tr>
<tr><td rowspan="3">Tədris metodları</td><td>Məşğələ</td><td colspan="2"></td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2"></td></tr>
<tr><td>Praktik tapşırıqlar və onların təhlili</td><td colspan="2"></td></tr>
<tr><td rowspan="4">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix (son müddət)</td><td>Faiz %</td></tr>
<tr><td>Fərdi tapşırıq araşdırma</td><td>Bir dəfə (semestr müddətində)</td><td>10</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr müddətində</td><td>5</td></tr>
</table>

<table>
<tr><td rowspan="5"></td><td>Təqdimat</td><td>Dekabr</td><td>10</td></tr>
<tr><td>Quiz (2)</td><td>Oktyabr, Dekabr</td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>30</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranışı)</td><td colspan="3">
Fərdi tapşırıq<br>
Mövzu əsasında araşdırma tapşırığından ibarətdir. Tapşırıq qiymətləndirilən zaman mövzunun məzmunu, araşdırma nəticələri, istinad mənbələrinin olması, plagiarizmin olmaması, yazının texniki uyğunluğu nəzərə alınaraq qiymətləndiriləcək.<br><br>
Onlayn tədris resursu hazırlamaq, təqdimat<br>
Resursun bəlli fənnə aid olması, mövzunun elmi məzmun ilə əhatə edilməsi, hazırlanan resursun öyrənmə materialı olaraq səmərəliliyi, plagiarizmin olmaması və resursun texniki uyğunluluğu nəzərə alaraq qiymətləndiriləcək.<br><br>
Davamiyyət- Hər dərsdə iştirak etmək vacibdir. Mühazirələr və sinif fəaliyyətləri sizin yeni bilik və bacarıqları anlamanızı və tətbiq etmənizə töhfə verir. Hər hansı bir dərsdə iştirak etmədiyi halda tələbə özü zaman buraxılmış tapşırıq və ya qeydlərə görə özünüz məsuliyyət daşıyacaq.<br><br>
Aktivlik-Hər dərs günündə praktik tapşırıqları yerinə yetirilməsi və təqdimat edilməsi prosesi nəzərə alınaraq yekunda qiymətləndirilmə aparılacaq.<br><br>
Yoxlama (quiz) 1, 2. Aralıq və final imtahanından əvvəl keçiriləcək. Tədris olunan mövzular üzrə açıq və qapalı tip sualların cavablandırılması şəklində keçirilməsi nəzərdə tutulur.<br><br>
Auditoriya qaydaları<br>
1. Dərsə zamanında gəlmək və iştirak etmək tələb olunur;<br>
2. Tapşırıqları zamanında təhvil vermək tələb olunur;<br>
3. Plagiarizm qəbul edilməyəcəkdir.<br>
4. Sinif bütün nümayəndələrinə hörmətlə yanaşmanız tələb olunur.<br><br>
Tələblər<br>
5. Sinif müzakirələrində və fəaliyyətlərində hər zaman fəal iştirak;<br>
6. Tapşırıqları zamanında və onlayn, çap formatda təqdim etmək;<br>
7. Ciddi xəstəlik və ya fövqəladə hallar istisna olmaqla mütəmadi olaraq dərsə davamiyyət.<br>
8. Mövzular ilə əlaqəli bütün materialların oxunması;
</td></tr>
</table>

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/tapşırıqlar |
|---|---|---|---|
| 1 | 20.09.2025 | Sillabus – fənnin məqsədləri, qiymətləndirmə siyasəti haqda məlumat. Təhsildə İKT-nin rolu. İKT-nin əsas anlayışları. | Aytac Rzayeva ,Zahirə Paşayeva İKT. Bölmə 1. Təqdimat. |

| | | | |
|---|---|---|---|
| 2 | 27.09.2025 | İnternet təhlükəsizliyi. Elektron poçt və onlayn ünsiyyət alətləri. | Vaqif Qasımov, İnformasiya təhlükəsizliyinin əsasları. S.15-63. Təqdimat. Praktik işlər |
| 3 | 04.10.2025 | Tədris prosesində oxu materiallarının hazırlanma texnologiyası. İKT alətlərinin düzgün tətbiqi. | Aytac Rzayeva ,Zahirə Paşayeva İKT. S.64-88. Müəllim tərəfindən hazırlanan təqdimat. Praktik işlər |
| 4 | 11.10.2025 | Tədris prosesində təqdimat materiallarının hazırlanma texnologiyası. | https://www.mcgill.ca/skillsets/files/skillsets/powerpointguidelines.pdf Müəllim tərəfindən hazırlanan təqdimat. Praktik işlər |
| 5 | 18.10.2025 | **Quiz 1.** Öyrənmə prosesində iş vərəqlərinin hazırlanmasında İKT | Fərqanə Əliyeva, Ümhani Məmmədova, Müasir təlim texnologiyaları. S.143 Müəllim tərəfindən hazırlanan təqdimat. Tətbiqlər üzərində praktik işlər |
| 6 | 25.10.2025 | Tədris prosesində elektron qiymətləndirmə vasitələrinin hazırlanması texnologiyası. | Fərqanə Əliyeva, Ümhani Məmmədova, Müasir təlim texnologiyaları. S.144 https://www.anl.az/down/meqale/az_mektebi/2022/1/05(meqale).pdf Müəllim tərəfindən hazırlanan təqdimat. Praktik işlər |
| 7 | 01.11.2025 | Öyrənmə mühitində interaktiv məzmun yaradan alətlər. | Müəllim tərəfindən hazırlanan təqdimat. Tətbiqlər üzərində praktik işlər |
| **Aralıq imtahanı** | | | |
| 8 | 08.11.2025 | Öyrənmə mühitləri – Sinxron, asinxron, hibrid. Müxtəlif öyrənmə mühitlərini təşkil edən alətlər. | A.Süleymanova “Təhsilin əsasları”, Bakı – 2014.s.34-78 Müəllim tərəfindən hazırlanan təqdimat. |
| 9 | 15.11.2025 | Süni intellek alətlərinin tədrisə tətbiqi | Müəllim tərəfindən hazırlanan təqdimat. Praktik işlər |
| 10 | 22.11.2025 | Ekitab, elektron məzmun yaradan İKT alətləri. | Tətbiqlər üzərində praktik işlər |
| 11 | 29.11.2025 | İnternet və informasiya axtarışı. Onlayn kitabxanalar, tədqiqat üçün İKT alətlərinin tətbiqi. | Internet’te Bilgi Arama Davranışları— Nazan Özenç Uçak, Selda Ekici Müəllim tərəfindən hazırlanan təqdimat. Tətbiqlər üzərində praktik işlər |
| 12 | 06.12.2025 | Microsoft 365 təhsil alətləri. | Müəllim tərəfindən hazırlanan təqdimat. Tətbiqlər üzərində praktik işlər |
| 13 | 13.12.2025 | **Quiz 2.** | Digitization bolstering self-directed learning for information literate |

| | | | |
|---|---|---|---|
| | | Sərbəst öyrənmə platformaları. | adults–A systematic review. Thomas Howard Morris, Matthias Rohs. Müəllim tərəfindən hazırlanan təqdimat. İnternet resursları. |
| 14 | 20.12.2025 | Resurs bazasının yaradılması, saxlanılması, paylaşılması. Bulud texnologiyaları və resurs paylaşımı. | Müəllim tərəfindən hazırlanan təqdimat. Praktik işlər |
| 15 | 27.12.2025 | Tələbə praktik işlərinin təqdimatı. | |
| **Final imtahanı** | | | |